**Qobustan Rayon İcra Hakimiyyəti başçısı Aparatında etik davranış məsələləri ilə əlaqədar 2021-ci ildə görülən işlər haqqında**
**Hesabat**

"Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinə əsaslanaraq, hesabat ilində Qobustan Rayon İcra Hakimiyyəti Başçısı Aparatında bir sıra işlər görülmüşdür. Belə ki, hesabat ilində Aparatda və ərazi nümayəndəliklərində çalışan dövlət qulluqçularını maarifləndirmək məqsədilə aşağıdakı mövzularda təlimlər keçirilmişdir:

- Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi;
-"Yerli icra hakimiyyətləri haqqında Əsasnamə" ilə yerli icra hakimiyyətlərinə həvalə edilmiş vəzifə və səlahiyyətlər;
- Dövlət qulluqçularının etik davranış qaydaları: "Korrupsiyanın qarşısının alınması, hədiyyə alma ilə əlaqədar məhdudiyyətlər, maddi və qeyri-maddi nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi";
- Dövlət qulluqçularının etik davranış qaydaları: "Vicdanlı davranış, loyallıq, mədəni davranış, insanların və hüquqi şəxslərin işgüzar nüfuzuna, şərəf və ləyaqətinə hörmət";
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddəalar: "Dövlət qulluqçusunun hüquqları, dövlət qulluğu ilə əlaqədar məhdudiyyətlər, təminatlar, mükafatlandırma və məsuliyyət";
- Vətəndaşların müraciətləirinə baxılması işinin təşkili.

Məlum olduğu kimi, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 30.1-ci maddəsində inzibati vəzifə tutan dövlət qulluqçusunun xidməti fəaliyyətinin hər təqvim ilinin sonunda qiymətləndirilməsi müəyyən edilmişdir.

Hesabat ilində "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 7.4-cü maddəsinə və "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydaları"nın 8-ci bəndinə əsasən, 14 nəfər dövlət qulluqçusuna növbəti ixtisas dərəcələri verilmiş, 23 iyun Dövlət qulluqçularının Peşə bayramı münasibətilə 6 nəfər əməkdaş Rayon İcra Hakimiyyəti başçısının Fəxri Fərmanı ilə təltif edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq, Aparatın və RİH başçısının İƏD üzrə nümayəndəliklərində çalışan əməkdaşlara il ərzində 3 dəfə olmaqla 1 aylıq vəzifə maaşı həcmində mükafat ödənilir. Eyni zamanda RİH başçısının sərəncamına əsasən iki nəfər fərdi qaydada 1 aylıq vəzifə maaşı həcmində mükafatlandırılmışdır. Həmçinin, Azərbaycan Respublikası Prezidentinin 23 iyun 2021-ci il tarixli Sərəncamı ilə uzun illər dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Aparatın Ərazi idarəetmə və yerli özünüidarəetmə şöbəsinin müdiri Mikayılov Elman Elxan oğlu "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

İl ərzində Rayon İcra Hakimiyyəti başçısı Aparatında çalışan dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarının pozulmasına görə daxil olmuş şikayətlərə qanunvericiliyin tələblərinə uyğun baxılır.

Hesabat ilində etik davranış qaydalarının pozulması halı aşkarlanmadığına görə heç bir əməkdaş inzibati tənbeh almamışdır.